**“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

~~həmin Qanunun 38-ci maddəsinin müddəalarından irəli gələn xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növü və bu fəaliyyət növü üçün xüsusi razılıq (lisenziya) verən icra hakimiyyəti orqanı barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~ [1]

~~həmin Qanunun 19-cu maddəsinin ikinci hissəsinin ikinci cümləsində və 43-cü maddəsinin birinci abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~

~~həmin Qanunun 52-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövrü mətbuat nəşrlərin Azərbaycan Respublikasında yayılması üçün razılığın verilməsi qaydasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;~~ [2]

öz səlahiyyətləri daxilində “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:[3]

*2.1. “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[4]

2.2. həmin Qanunun 19-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;[5]

2.3. həmin Qanunun 19-cu maddəsinin *üçüncü* hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini 1-ci bənd üzrə Azərbaycan Mətbuat Şurası, 2-ci bənd üzrə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının *Dövlət Təhlükəsizliyi Xidməti* öz səlahiyyətləri daxilində, 3-cü və 4-cü bəndlər üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir; [6]

2.4. həmin Qanunun 52-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyi həyata keçirir;[7]

2.5. həmin Qanunun 53-cü maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

2.6. *həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir;*[8]

2.7. *həmin Qanunun 19-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq dövlət orqanının səlahiyyətlərini Milli Televiziya və Radio Şurası həyata keçirir;*[9]

*2.8. həmin Qanunun 29-cu maddəsində “qurum” dedikdə Azərbaycan Mətbuat Şurası nəzərdə tutulur.* [10]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 fevral 2000-ci il
277

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 585**)
2. 29 yanvar 2004-cü il tarixli 18 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 24**)
3. 7 may 2008-ci il tarixli 748 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 13 may 2008-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 359)**
4. 27 avqust 2009-cu il tarixli 151 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 29 avqust 2009-cu il, 191, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 8, maddə 627)**
5. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, 101)**
6. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,**

**2014-cü il, 09, maddə 1027)**

7. 20 noyabr 2015-ci il tarixli **682** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1312**)

8. 20 aprel 2016-cı il tarixli **870** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 22 aprel 2016-cı il, 85 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 675**)

9. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )

10. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)

11. 20 fevral 2019-cu il tarixli **531** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2019-cu il, 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 230**)

12. 1 mart 2019-cu il tarixli **552** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 393**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 585**) ilə 1-ci bənddə beşinci abzas çıxarılmışdır.

-

[2] 29 yanvar 2004-cü il tarixli 18 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 24**) ilə 1-ci bənddə beşinci və altıncı abzaslar çıxarılmışdır.

[3] 1 mart 2019-cu il tarixli **552** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 393**) ilə 2-ci hissədə ikinci–səkkizinci abzaslar, müvafiq olaraq, 2.1–2.7-ci bəndlər hesab edilmişdir.

[4] 29 yanvar 2004-cü il tarixli 18 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 24**) ilə 2-ci bənddə 2-ci bəndin ikinci abzasında "**İşlər İdarəsinin"** sözlərindən sonra "**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin**" sözləri əlavə edilmişdir.

29 yanvar 2004-cü il tarixli **18** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 24**) ilə 2-ci bənddən üçüncü abzas çıxarılmışdır.

~~həmin Qanunun 27-ci maddəsinin birinci hissəsində "müvafiq icra hakimiyyəti orqanının qərarı" dedikdə Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin təqdimatına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilən qərar nəzərdə tutulur;~~

7 may 2008-ci il tarixli 748 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 13 may 2008-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 359**) ilə İkinci abzasda "**və Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin**" sözləri "**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin**" sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101**) ilə 2-ci hissəsinin ikinci abzasında "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 2-ci hissənin birinci bəndindən "**və Sənaye**" sözləri çıxarılmışdır.

20 fevral 2019-cu il tarixli **531** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2019-cu il, 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 230**) ilə 2-ci hissənin ikinci abzasından "**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin,**" sözləri çıxarılmışdır və həmin abzasa "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin**" sözlərindən sonra "**, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin**" sözləri əlavə edilmişdir.

1 mart 2019-cu il tarixli **552** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 393**) ilə 2.1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.1. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində göstərilən "müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları" dedikdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyinin, *Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin* kitabxanaları nəzərdə tutulur;~~

[5] 27 avqust 2009-cu il tarixli 151 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 avqust 2009-cu il, 191, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 8, maddə 627**) ilə 2-ci bəndinə dördüncü abzas əlavə edilmişdir, dördüncü, beşinci və altıncı abzaslar müvafiq olaraq beşinci, altıncı və yeddinci abzaslar hesab edilmişdir.

[6] 29 yanvar 2004-cü il tarixli 18 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 24**) ilə 2-ci bənddə dördüncü abzasdan **"ikinci hissəsinin birinci cümləsində** və" və **"27-ci maddəsinin ikinci və dördüncü hissələrində"** sözləri çıxarılmışdır.

7 may 2008-ci il tarixli **748** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 13 may 2008-ci il, 102,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 359)** ilə dördüncü abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~həmin Qanunun 19-cu maddəsinin və onuncu hissəsində və 52-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi həyata keçirir;~~

20 fevral 2019-cu il tarixli **531** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2019-cu il, 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 230**) ilə 2-ci hissənin dördüncü abzasında "**onuncu**" sözü "**üçüncü**" sözü ilə, "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

-

[7] 7 may 2008-ci il tarixli **748** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 13 may 2008-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 359**) ilə yeni məzmunda beşinci abzas əlavə edilmişdir, beşinci abzas altıncı abzas hesab edilmişdir.

2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 2-ci hissəsinin ikinci və altıncı abzaslarında "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 2-ci hissənin ikinci və beşinci abzaslarına "**Rabitə**" sözündən əvvəl "**Nəqliyyat,**" sözü əlavə edilmişdir.

[8] 20 noyabr 2015-ci il tarixli **682** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1312**) ilə 2-ci hissəsində altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda yeddinci abzas əlavə edilmişdir.

[9] 20 aprel 2016-cı il tarixli **870** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 22 aprel 2016-cı il, 85, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 675**) ilə 2-ci hissəsinin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda səkkizinci abzas əlavə olunmuşdur.

[10] 1 mart 2019-cu il tarixli **552** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 393**) ilə 2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.8-ci bənd əlavə edilmişdir.